

Nəriman ƏBDÜLRƏHMANLI

# Bir kompozisiyanın tarixçəsi

***Təxminən əlli il əvvəl Tacir Şahmalıoğlunun ifasında səslənən, bir neçə il qabaq Kənan Bayramlının yenidən can verdiyi məşhur "Bayatı-Şiraz" kompozisiyası kimləri heyrətləndirməyib?..***

***Hər iki ifa dövlət tədbirlərinin şah nömrəsinə çevrilib, hətta Kənan Bayramlının ifası qardaş Türkiyədə "dünyanın ən güclü uşaq səsi" adlandırılıbg***

***Bəs, o kompozisiya necə yaranıb?***

Bu yaxınlarda sosial şəbəkələrdə müğənni Tacir Şahmalıoğlunun improvizə müəllifliyi ilə bağlı iddiasına 70-ci illərin əvvəllərində yaradılmış "Qarabağ bülbülləri" ansamblının rəhbəri Murad Rzayevin cavabı məni kiçik bir araşdırma aparmağa sövq elədi, nəticədə bir deyil, iki həqiqəti aydınlaşdırdım.

Əvvəlcə vikipedik bilgilərə əsasən, eləyim ki, "Bayatı-Şiraz" Azərbaycan musiqisində yeddi laddan (məqamdan), əsas muğam dəstgahından biridi, "Bərdaşt", "Mayeyi-Bayatı-Şiraz", "Nişibi-fəraz", "Bayatı-İsfahan", "Zil Bayatı-Şiraz", "Xavəran", "Üzzal", "Dilrüba" və "Bayatı-Şiraza ayaq (kadensiya)" kimi şöbə və guşələrdən ibarətdi. Üzeyir Hacıbəyov "Bayatı-Şiraz" haqqında yazır: "Bədii-ruhi təsir cəhətdən... "Bayatı-Şiraz" dinləyicidə qəmginlik hissi oyadır". Bu muğam əsasında görkəmli bəstəkarlarımız Fikrət Əmirov "Gülüstan-Bayatı-Şiraz", Süleyman Ələsgərov "Bayatı-Şiraz" simfonik muğamlarını, Nazim Əliverdibəyov xor üçün "Bayat-Şiraz", Polad Bülbüloğlu "Bayatı-Şiraz" simfoniyalarını yaradıblar.

Nəhayət, 70-ci illərin ortalarında "Bayatı-Şiraz"ın könülləri fəth eləyən o məşhur improvizəsi meydana çıxıb...

Bəri başdan deyim ki, əmin olduğum birinci həqiqət kompozisiyanı "Qarabağ bülbülləri" ansamblının bədii rəhbəri Murad Rzayevin yaratmasıdı.

Murad Rzayev "Bayatı-Şiraz" muğamının improvizəsi və ilk ifaçısı Tacir Şahmalıoğluna təqdimat tarixçəsiylə bağlı deyib ki, o zamanlar Ağdamdan Bakıya konsertlər vermək üçün gəlirdik, "Bayatı-Şiraz"ı oxumalı idik, fikirləşdim ki, həmişə eyni şey alınmasın, əlavələr etmək lazımdır. Onun fikrincə, muğam üzərində qurulan həmin improvizə texkini cəhətdən hind musiqisinə bir az yaxındı: "Əvvəlcə kompozisiyanı "Qarabağ bülbülləri" ansamblının bir üzvünə verdim. Bir neçə dəfə cəhd elədik, gördüm alınmır. Tacir də kənarda oturmuşdu, dedi, icazənizlə oxumaq istəyirəm. İfa elədi, gördüm fikirlərimə uyğun gəlir. Dedim, bəlkə, sən oxuyasan? Bir neçə məşqdən sonra Heydər Əliyev Sarayındakı konsertdə oxudu. Təxminən 1976-77-ci illər idi. Konsertdən sonra yenə məşq elədik. Gördüm, əməlli başlı alınır. Bununla da həmin mahnını ifa eləməyə başladı. Həmin vaxt



Tacir balaca uşaq idi, hardasa 7-8 yaşı var olardı". Bu, Tacir Şahmalıoğlunun doğum tarixiylə götürülsə, 1972-1973-cü illərə dəng gəlir.

İkinci həqiqət budu ki, Murad Rzayev o vaxt kompozisiyanın təkcə musiqisini deyil, mətnini də improvizə eləyib. Əvvəlcə böyük şairimiz Abbas Səhhətin dillər əzbəri olan "Vətən" şeirinin birinci və sonuncu beytlərini götürüb ayrıca bir bənd yaradıb:

**Könlümün sevgili məhbubu mənim,**
**Vətənimdir, vətənimdir, vətənim.**
**Vətəni sevməyən insan olmaz,**
**Olsa da o şəxsdə vicdan olmaz.**

Sonra improvizə müəllifi daha bir görkəmli şairimiz İsa İsmayılzadənin elə o illərdə "Ulduz" jurnalında işıq üzü görmüş, qısa müddətdə dillər əzbərinə çevrilmiş "Vətən deyirəm" şeirinin birinci və sonuncu bəndi olan beş misrasını Abbas Səhhətin sözlərinə əlavə eləyib:

**Sən mənim köksümdə çarpan ürəksən,**
**Mən sənin köksündə kiçik bir zərrə...**
**Mənə qanad verən odlu diləksən,**
**Adına, özünə vətən deyirəm,**
**Çölünə, düzünə vətən deyirəm...**

Nəticədə iki şairin mətni eyni kompozisiyada elə üzvi şəkildə qovuşub ki, dinləyici o mətnlərin fərqli müəlliflərə məxsus olduğunu ağlına belə gətirmir. Kimdən "Abbas Səhhətlə İsa İsmayılzadəni nə birləşdirir?" soruşsan, yəqin, ağlına "Bayatı-Şiraz" kompozisiyası deyil, ümumiyyətlə, poeziya gələr. Hətta ikinci mətnin İsa İsmayılzadəyə deyil, Abbas Səhhətə məxsus olduğunu iddia eləyənlərə də rast gəlmişəm.

Məncə, Murad Rzayev haqlıdı, onun dediyi kimi, o vaxt 7-8 yaşı olan bir uşağın ağlına belə bir mükəmməl kompozisiya yaratmaq gələ bilməzdi. Tacir yalnız kompozisiya müəllifinin yaratdığına öz nəfəsini, öz xallarını qata bilərdi ki, bunu da danılmaz istedadla yerinə yetirib. Üstəlik, bu həqiqəti sağlığında İsa İsmayılzadənin dilindən də eşitmişdim, əvvəlcə şeirindən bir bəndi televiziya ekranında səslənən "Bayatı-Şiraz" kompozisiyasında eşitdiyini, "Qarabağ bülbülləri" və Murad Rzyevlə bir qədər sonra tanış olduğunu danışmışdı.

1977-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında rejissor Xamis Muradovun çəkdiyi, Tacir Şahmalıoğlunun "Bayatı-Şiraz" kompozisiyasını ifa elədiyi "Qarabağ bülbülləri" sənədli filminin ssenari müəllifi də elə şair İsa İsmayızadədi. Onun film üzərində işə dəvət edilməsi məhz mətninin kompozisiyada səslənmədsindən qaynaqlanmışdı.

Onu da əlavə eləyim ki, "Bayatı-Şiraz" kompozisiyasını bir neçə il əvvəl Elnur Zeynalov da ifa eləyib. Amma onun ifası dinləyicilərə tanış olan ifalardan xeyli fərqlənir, üstəlik də mətn dəyişikliyi ilə yadda qalır. O, tamaşaçılara "Doğma sahillər" filmindən xatırladığımız misraları çatdırır:

**Ana yurdum para-para,**
**Bu nə dərddir, bu nə yara.**
**Tapılmır bu dərdə çarə,**
**Çarəsiz dağlarım yeri,**
**Naləsiz dağlarım yeri.**

Etiraf eləyim ki, "Bayatı-Şiraz" kompozisiyasının bədbin çalarlı bu versiyası, başqalarını bilmirəm, məni bir dinləyici kimi o qədər də təsirləndirmir...

Beləcə, kompozisiyanı dinləyəndə yaradıcısı Murad Rzayevlə yanaşı, bənzərsiz mətnlərin müəllifləri Abbas Səhhət və İsa İsmayılzadəni də yada salsanız, ruhları şad olar...

Çünki o ecazkar mətnlər olmasaydı, kompozisiya bu qədər bütöv alınmazdı...

Türküstan.- 2025.- 25 noyabr-1 dekabr, №42.- S.14.